ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1015.

UOT: 338.43

# ƏSAS NÖV KƏND TƏSƏRRÜFATI MƏHSULLARI İSTEHSALININ DİNAMİKASININ QİYMƏTLƏNDİRİLMƏSİ

Xalsa İbrahim Nəsibova[1], Loğman Zahid Xudaquliyev[2]

**XÜLASƏ**

**Tədqiqatın məqsədi –** əsas növ kənd təsərrüfatında məhsul istehsalının illər üzrə dəyişmə dinamikasını müəyyən etməkdən ibarətdir. Burada bir qrup kənd təsərrüfatı məhsullarının istehsalına təsir edən amilləri aşkara çıxarmaqdır.

**Tədqiqatın metedologiyası –** tədqiqat zamanı nəzəri və riyazi təhlil üsullarından geniş istifadə edilmişdir. Burada nəticənin müqayisəsini aparmaq, təhlil etmək məqsədilə məntiqi təhlil metodlarından yararlanılmışdır.

**Tədqiqatın tədbiqi əhəmiyyəti –** tədqiqatın yerinə yetirilməsindən əldə edilən nəticələr bu sahədə aparılması nəzərdə tutulan tədqiqatlarda, o cümlədən mühazirə mətinlərinin yenilənməsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələri –** Aparılan tədqiqatdan aydın olur ki, ölkəmizdə kənd təsərrüfatı məhsulu istehsalında artım özünün dayanıqlığı ilə xarakterizə edilir və istehsalın artırılması istiqamətində dövlət dəstəkləyici tədbirlər kifayət qədər geniş və müxtəlifdir. Tədqiqatın nəticəsi həmçinin bizə göstərir ki, son illər kənd təsərrüfatı məhsulları istehsalında, o cümlədən istehlak qiymətləri indeksində əhəmiyyətli dəyişiklik baş vermişdir ki, bu da dolayısı ilə həm istehsalçı, həm də istehlakçı maraqlarının yenidən uzlaşdırılması sahəsində yenilikçi mexanizmlərdən istifdəni zəruri edir.

**Tədqiqatın elmi yeniliyi –** kənd təsərrüfatında məhsul istehsalının artırılması təkcə investisiya siyasəti ilə həllini tapmır, burada yeni idarəçilik metodlarından istifadə və yeni strateji sahələrin müəyyən edilərək dəstəklənilməsi vacibdir

**Açar sözlər:** iqtisadi fəaliyyət sahələri, aqrar sektor, iqtisadi artım, dövlət dəstəyi, investisiya, rəqabət mühiti

Aqrar məhsul istehsalının yüksəldilməsi və sahənin özünün inkişafına nail olunması, dövlətin iqtisadi siyasətinin prioritet istiqaməti kimi çıxış edir. Bu onunla əlaqəlidir ki, aqrar məhsullar gündəlik istehlakda xüsusi çəkisinə görə digər sahələri geridə qoyur və bu məhsullar istehlakın əsaslı hissəsini təşkil edir. Digər tərəfdən, ərzaq təhlükəsizliyi kimi vacib iqtisadi kateqoriyanın məhz bu sahə hesabına təmin edilməsi, aqrar sahənin davamlı inkişafını zəruri edir və bu sahədə olan problemlərin həllini şərtləndirir (İbrahimov, 2016). Beləliklə, aqrar sahə ölkə iqtisadiyyatının ən vacib sahələrindən biridir. Ölkə əhalisi üçün ərzaq məhsulları, emal sənayesi üçün xammal məhz bu sahədə istehsal olunur. Məlumat üçün qeyd edək ki, gündəlik istehlak məhsullarına olan tələbin təqribən 70-80 faizi məhz bu sahədə istehsal olunan məhsullar hesabına ödənilir. Bütün bunlardan çıxış edərək, aqrar sahənin inkişafının təmin edilməsi məqsədilə izlənilən siyasət diqqət cəlb edir. İqtisadiyyatın digər sahələrində olduğu kimi, aqrar sahədə də ümumi iqtisadi qanunlar işləyir (Məmmədov, 2015). Kənd təsərrüfatının inkişafındakı göstəricilərə baxsaq, görərik ki, aqrar sahəyə göstərilən qayğı və dəstəyin nəticəsində ölkədə kənd təsərrüfatı məhsullarının istehsalında artım mövcuddur. Beləliklə, ölkədə həyata keçirilən irimiqyaslı aqrar islahatlar kənd təsərrüfatının davamlı inkişafına gətirib çıxartmışdır. Təkcə onu qeyd etmək lazımdır ki, 2010-2021-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalının real artımı ümumilikdə 236.8 faiz, o cümlədən bitkiçilik sahəsində 197.2 faiz, heyvandarlıq sahəsində isə 246.1 fazi təşkil etmişdir. Dünya Bankının məlumatlarına əsasən, bu illər ərzində Azərbaycanda kənd təsərrüfatı sahəsinin real artımı dünya üzrə orta göstəricidən, habelə region ölkələrinin müvafiq göstəricilərindən yuxarı olmuşdur (Mustafayeva, 2022). Ölkəmizdə aqrar sahənin mövcud iqtisadi vəziyyətinin daha aydın təhlil etmək məqsədilə bir neçə, şəkil və cədvələ diqqət etmək faydalı olardır.

[1] Əsas müəllif/Xalsa İbrahim qızı Nəsibova:ADAU, Gəncə şəhəri, xalsa_nesibova@mail.ru
[2] Loğman Zahid oğlu Xudaquliyev, ADAU, Gəncə şəhəri

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1015.

Beləliklə diaqram 1-də ölkəmizdə 1995-2021-ci illər ərzində aqrar istehsalın ümumi və sahələr üzrə istehsalının səviyyəsinə yer verilmişdir. İlkin vaxtlarda, yəni müstəqilliyin ilk illərində aqrar sahədə istehsal edilən ümumi məhsulun dəyəri kifayət qədər aşağı olmuşdur. Daha dəqiq desək, həmin dövrdə aqrar məhsul istehsalının ümumi kəmiyyəti təqribən 1.1 mlrd manat səviyyəsində olmuşdur.

***Diaqram 1***

**Kənd təsərrüfatının ümumi və sahələr üzrə məhsulu (mln manat ilə)**




***Mənbə:*** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*

Sonrakı beş ildə qəbul edilən aqar sahə üzrə qanuvercilik aktlarının, səmərəli dövlət siyasətinin reallaşdırılması hesabına bu kəmiyyəti artaraq təqribən 2.98 mlrd manat səviyyəsinə çatmışdır. Hazırda isə bu kəmiyyət 9.3 mlrd manat səviyyəsində qərarlaşmışdır. Diqqət çəkən məqam ondan ibarətdir ki, ölkəmizdə aqrar sahə üzrə məhsul istehsalının ümumi kəmiyyəti hər ötən ilə nisbətdə artan xətt üzrə davamlılıq göstərmişdir. Burda digər diqqət çəkən məqam isə, istehsal olunan həm bitkiçilik, həm də heyvandarlıq məhsulları üzrə istehsal kəmiyyətləri arasında kəskin fərqin olmamasıdır. Belə ki, diqqət edildiyi zaman aydın olur ki, keçən dövr ərzində həm bitkiçilik, həm də heyvandarlıq məhsulları istehsalında yaxınlıq olmuşdur. Bu dövlətin sahə üzrə balanslaşdırıcı siyasəti ilə izzah oluna bilər. İqtisadi ədəbiyyatlardan bilindiyi üzrə, sahələr arasında kəskin fərqlərin olması gələcəkdə bu sahələrin hər birində müxtəlif dərəcəli çətinliklərin yaranmasına səbəb olur. Odur ki, ölkəmizdə balansın qorunub saxlanılması, aqrar siyasətin əsas tərəfi kimi diqqət mərkəzində saxlanılmaqdadır. Hazırda, ölkəmizdə aqrar məhsul istehsalının dinamikasında müxtəlif dəyişikliklər qeydə alınmaqdadır. Bu xüsusilə, əhalinin artan istehlak tələbi ilə bağlıdır və dövlət bu sahədə istehlak tələbinin ödənilməsi məqsədilə çoxsaylı təxirəsalınmaz tədbirlər reallaşdırmaqdadır (Salahov, 2005). Bunu daha aydın təhlil etmək məqsədilə, cədvəl 1-də əsas növ kənd təsərrüfatı məhsulları üzrə istehsal dinamikasına yer verilmişdir. Cədvəl məlumatlarına diqqət edildiyi zaman aydın olur ki, son beş ildə, daha dəqiq desək 2017-ci il ilə müqayisədə, 2021-ci ildə dənli və dənli paxlalı bitkçilik məhsulları üzrə 17.97 faiz, kartof üzrə 19.57 faiz, şəkər istehsalı üzrə 18.56 faiz artım müşahidə edilmişdir. Bu artım tərəvaz məhsulları üzrə nisbi kəmiyyətlə ifadə də, 34.45 faiz, üzümçülük məhsulları üzrə 28.45 faiz, çay bitikisi üzrə isə 60.34 faiz təşkil etmişdir (9). Cədvəl məlumatlarının təhlili bizə, müxtəlif bitkiçilik sahələrində artımların son beş ildə əhəmiyyətli şəkildə çoxluğunu göstərdi. Bu artım, aqrar sahəyə olan dövlət siyasətinin səmərəliliyinin bariz nümunəsi kimi

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1015.

qiymətləndirilə bilinər. Hazırda bilindiyi üzrə, ölkəmizdə aqrar məhsul istehsalçıları müxtəlif dəstəkləmə formaları ilə himayə edilirlər. Onlar fəaliyyət sahələrindən asılı olaraq, bitkiçiliyin müxtəlif sahələri üzrə ayrı-ayrı müxtəlif kəmiyyətlərdə subsidiyalar alır və aldıqları vəsaitlər hesabına istehsalda yeni yanaşmanın tətbiqinə yer verirlər (Qurbanzadə, 2004). Hazırda ölkəmizdə aqrar istehsalda dayanıqlığı artırmaq məqsədilə əkin, məhsul, toxum subsidiyası ilə yerli aqrar istehsalçılar dəstəklənilməkdədir. Bitkiçilik sahəsində artımlara nəzər yetirdikdən sonra, indi də son beş ildə heyvandarlıq sahəsində artımların hansı səviyyədə olmasına nəzər yetirək.

***Cədvəl 1***

**Əsas növ kənd təsərrüfatı məhsulları istehsalının dinamikası, min tonla**

| Məhsullar | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2017-ci illə müqayisədə 2021-ci ildə, % | 2020-cı illə müqayisədə 2021-ci ildə, % |
|---|---|---|---|---|---|---|---|
| Bitkiçilik məhsulları | | | | | | | |
| Dənli və dənli paxlalılar | 2999.4 | 3065.1 | 2928.8 | 3309.2 | 3538.5 | 117.97 | 106.93 |
| Pambıq | 35.2 | 89.4 | 207.5 | 233.6 | 295.3 | 8.38 dəfə | 126.4 |
| Kartof | 839.8 | 902.4 | 913.9 | 898.9 | 1004.2 | 119.57 | 111.71 |
| Tütün | 3.5 | 3.6 | 5.3 | 6.3 | 6.0 | 171.4 | 95.23 |
| Şəkər çuğunduru | 184.3 | 312.6 | 410.1 | 277.2 | 218.5 | 118.56 | 78.82 |
| Tərəvəz | 1275.3 | 1270.6 | 1405.6 | 1521.9 | 1714.7 | 134.45 | 112.67 |
| Bostan məhsulları | 484.5 | 464.8 | 438.1 | 401.9 | 447.6 | 92.4 | 111.37 |
| Meyvə və giləmeyvə | 888.4 | 882.8 | 954.8 | 1010.8 | 1099.7 | 123.78 | 108.79 |
| Üzüm | 157.1 | 136.5 | 152.8 | 167.6 | 201.8 | 128.45 | 120.4 |
| Çay | 0.58 | 1.02 | 0.78 | 0.87 | 0.93 | 160.34 | 106.89 |
| Heyvandarlıq məhsulları | | | | | | | |
| Ət (kəsilmiş çəkidə) | 298.6 | 302.2 | 316.8 | 326.0 | 335.7 | 112.42 | 102.97 |
| Süd | 1924.5 | 2009.9 | 2024.1 | 2080.4 | 2150.8 | 111.76 | 103.38 |
| Yumurta.mln. ədəd | 1552.9 | 1609.8 | 1714.0 | 1676.2 | 1827.1 | 117.66 | 109.0 |
| Balıq | 51.237 | 63.146 | 63.812 | 61.879 | 63.084 | 123.12 | 101.95 |
| Bal | 2.6 | 2.7 | 3.0 | 5.0 | 5.8 | 1.23 dəfə | 116 |

***Mənbə:*** *DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Cədvəl 1-in məlumatlarının təhlili bizə göstərir ki, son beş ildə heyvandarlıqda, kəsilmiş çəkidə ət məhsulları üzrə, 12.42 faiz, süd istehsalı üzrə 11.76 faiz artım qeydə alınmışdır. Bir öncəki ilə nisbətdə, hər iki məhsul üzrə artımın nisbi kəmiyyəti ardıcıl olaraq 2.97 və 3.38 faiz təşkil etmişdir. Ötən beş ildə yumurta məhsulu üzrə atımın kəmiyyətinə gəlincə nisbi kəmiyyətlə ifadə də, həmin məhsul üzrə artım 17.66 faiz olmuşdur (8). Əvvəlki ilə nisbətdə, bu artım 9.0 faiz səviyyəsində olmuşdur. Balıq və balıq məhsulları üzrə, son beş ilin məlumatları müqayisəli təhlil edilərkən, aydın olur ki, nisbi artımın kəmiyyəti 23.12 faiz səviyyəsində qeydə alınmışdır. Cədvəl 1-in məlumatlarının statistik təhlili bizə onu deməyə əsas verir ki, son beş ildə ölkəmizdə aqrar məhsul istehsalının kəmiyyəti əhəmiyyətli şəkildə

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1015.

artmışdır. Xüsusilə, son illərə baxıldığı zaman aydın olur ki, əslində bu artımın daha qabarıq səviyyəsi məhz 2017-ci ildən bu yana hiss olunmuşdur.

Kənd təsərrüfatında istehsalın mövcud vəziyyətini iqtisadi cəhətdən qiymətləndirərkən burada özüntəminat imkanlarının hansı səviyyədə olmasını aydınlaşdırmaq vacibdir. Yuxarıdakı təhlillər bizdə əslində müsbət təəsürat formalaşdırsa da, nəticənin müsbət istiqamətdə olmasını aşkar etmək məqsədilə istehsalın özüntəminat imkanlarında necə dəyişikliyə gətirib çıxardığını müəyyən etmək olduqca əhəmiyyətlidir. Bu məqsədlə cədvəl 2-də ölkəmizdə əsas növ kənd təsərrüfatı məhsulları üzrə mövcud olan özünütəminetmə səviyyəsi öz əksini tapmışdır.

***Cədvəl 2***

**Bitkiçilik və heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz ilə**

| | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|
| Dənlilərin cəmi | 66.3 | 74.1 | 67.3 | 68,1 | 73.7 |
| buğda | 58.1 | 64.8 | 57.2 | 57,1 | 61.5 |
| Paxlalılar | 73.7 | 72.0 | 76.1 | 60,3 | 56.4 |
| Kartof | 89.2 | 90.8 | 87.8 | 90,6 | 88.8 |
| Tərəvəz | 115.2 | 115.0 | 112.0 | 110,4 | 106.6 |
| Pomidor | 130.9 | 138.0 | 132.5 | 131,0 | 121.1 |
| Bostan məhsulları | 100.2 | 99.7 | 100.8 | 100,8 | 102.6 |
| Meyvə, giləmeyvə | 122.4 | 123.2 | 123.1 | 116,3 | 122.9 |
| **Heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, faiz ilə** | | | | | |
| Bütün növ ət məhsulları | 84.7 | 82.7 | 82.5 | 84,5 | 86.4 |
| mal əti və ət məhsulları | 86.3 | 85.1 | 86.1 | 87,4 | 91.9 |
| qoyun və keçi əti və ət məhsulları | 98.0 | 98.1 | 97.6 | 97,3 | 98.2 |
| quş əti və ət məhsulları | 79.7 | 75.9 | 74.6 | 79,0 | 79.6 |
| Süd və süd məhsulları | 86.1 | 86.7 | 86.3 | 83,5 | 84.8 |
| Yumurta | 100.5 | 101.5 | 101.8 | 100,0 | 99.1 |
| Balıq və balıq məhsulları | 81.2 | 83.1 | 82.2 | 81,7 | 78.2 |

***Mənbə:*** *DSK-nin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

Cədvəl məlumatlarının təhlili bizə göstərir ki, son illər dənli bitkilər üzrə (7.4 bənd), o cümlədən buğda məhsulu üzrə özünütəminat səviyyəsində müəyyən dərəcədə (3.4 bənd) artıma nail olunmuşdur. 2017-ci il ilə müqayisə etdiyimizdə 2021-ci ildə kartof məhsulu üzrə özüntəminat səviyyəsində 0.4 bənd, tərəvəz məhsullarında 8.6 bənd, pomidor məhsulunda isə 9.8 bənd azalma olmuşdur. Heyvandarlıq məhsulları üzrə baxdığımızda görürük ki, 2017-ci il ilə müqayisədə 2021-ci ildə bütün növ ət məhsulları üzrə 1.7 bənd, o cümlədən mal əti üzrə özünütəminatda 5.6 bənd artıma nail olunmuşdur. Eyni illərin müqayisəsində özünütəminat imkanları azalan məhsullar içərisində süd məhsulları (1.3 bənd), yumurta (1.4 bənd) və balıq məhsullarının (3.0 bənd) adlarını çəkmək olar (9). Cədvəl 2-nin məlumatlarının illər üzrə müqayisəsi bizə onu deməyə əsas verir ki, son illər ölkəmizdə kənd təsərrüfatı məhsul istehsalının həm ümumi kəmiyyətində, həm də ayrı-ayrı alt sahələrində artıma nail olunsa da, özünütəminat səviyyəsində kəskin artıma nail olunmamışdır. Bu hal bizə əslində son illər məhsul istehsalının artmasını göstərən göstəricilərin real deyil, nominal rəqəmlərlə ifadə edildiyini göstərir. Belə ki, son illər dünya ərzaq məhsulları bazarında artan qiymətlər səviyyəsi ölkəmizdə istehsal edilən ümumi aqrar məhsulun dəyər ifadəsində kəmiyyətinə əsaslı şəkildə təsir etmiş, onun yüksəlməsinə gətirib çıxarmışdır.

Aqrar sahənin mövcud vəziyyəti üzrə həyata keçirdiyimiz tədqiqatın nəticəsi kimi deyə bilərik ki, əslində son illər aqrar sahə məhsullarının istehsalında əhəmiyyətli artımlar

DOI:10.30546/2790-5799.2.2024.1015.

müşahidə edilmişdir. Ancaq artan istehsal heç də, yüksələn istehlak tələbini tam şəkildə qarşılamaq iqtidarında olmamışdır. Digər tərəfdən isə, bütün bunların qarşılığında ölkəmizdə istehlak qiymətləri indeksində kəskin kənarlaşmalar olmamış, qiymətlərin ümumi səviyyəsi nisbətən stabillik göstərmişdir. Dövlət Statistika Komitəsinin 2021-ci ildə məlumatlarına diqqət edildiyi zaman, istehlak qiymətləri indeksinin 6.7 faiz dəyişdiyini, qiymətlərin ümumi səviyyəsinin ötən illərə nisbətdə artdığını görmək mümkündür. 2022-ci ildə istehlak qiymətləri indeksində ki, dəyişmənin nisbi kəmiyyətlə ifadəsi 13.9 faiz təşkil etmişdir (8). Beləliklə aparılan təhlilin nəticəsi müsbət istiqamətdə dəyişikliklərin olduğu haqqında bizə fikirlər verir.

**Yekun nəticə.** Qeyd edilənlər birdaha ölkəmizdə ərzaq məhsulları üzrə qiymətlərin səviyyəsinin stabilik göstərdiyini kəskin artımların olmadığını deməyə əsas versə də, sonuncu ildə qiymətlərin nisbətən artması, dünya ərzaq bazarında hiss olunan infilyasiyanın təsirinin ölkəmizdən yan keçmədiyini göstərir. Bununla belə ölkəmizin aqrar məhsul istehsalındakı mövcud vəziyyəti qənaətbəxş hesab etmək olar. Bu sahədə stimullaşdırıcı tədbirlər hesabına gələcəkdə iqtisadi inkişafın dahada yaxşılacağı istisna edilmir.

## Ədəbiyyat siyahısı

1. “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” Azərbaycan Respublikasının qanunu Bakı. 13 iyun 2008-ci il
2. “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamı, Bakı. 23 yanvar 2007-ci il
3. İbrahimov İ, (2016) Aqrar sahənin iqtisadiyyatı. Bakı. 655 s
4. Mustafayeva R, (2022) Aqrar iqtisadiyyat. Bakı. 304 s
5. Məmmədov İ, (2015) Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi. Bakı. 298 s
6. Qurbanzadə A, (2004) Aqrar strukturun regional inkişaf modeli. Bakı. 438 s
7. Salahov S. (2005) Aqrar sahənin dövlət tənzimlənməsi. Bakı. 503 s
8. www.economu.gov.az
9. http://www.azstat.org

## ASSESSMENT OF THE DYNAMICS OF PRODUCTION OF MAIN TYPES OF AGRICULTURAL PRODUCTS

### SUMMARY

**The purpose of the research -** is to determine the dynamics of changes in agricultural production over the years. Here is to reveal the factors affecting the production of a group of agricultural products.
**The methodology of the research -** theoretical and mathematical analysis methods were widely used during the research. Here, logical analysis methods were used to compare and analyze the results.
**The practical importance of the research -** the results obtained from the research can be used in the studies planned to be conducted in this field, including the updating of lecture texts.
**The results of the research -** It is clear from the conducted research that the increase in the production of agricultural products in our country is characterized by its stability, and the state supporting measures in the direction of its increase are quite broad and diverse. The result of the study also shows us that in recent years, there has been a significant change in the production of agricultural products, including the consumer price index, which consequently requires the use of innovative mechanisms in the field of reconciling the interests of both producers and consumers.
**The scientific novelty of research -** increasing production in agriculture is not only solved by investment policy, it is important to use new management methods and identify and support new strategic areas.

**Keywords:** *areas of economic activity, agricultural sector, economic growth, state support, investment, competitive environment*

## ОЦЕНКА ДИНАМИКИ ПРОИЗВОДСТВА ОСНОВНЫХ ВИДОВ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ПРОДУКЦИИ
## РЕЗЮМЕ

**Цель исследования -** заключается в определении динамики изменения сельскохозяйственного производства по годам. Здесь необходимо выявить факторы, влияющие на производство группы сельскохозяйственной продукции.

**Методология исследования -** В ходе исследования широко использовались методы теоретического и математического анализа. Здесь для сравнения и анализа результатов использовались методы логического анализа.

**Важность исследовательского приложения -** Результаты, полученные в результате исследования, могут быть использованы в исследованиях, планируемых к проведению в данной области, в том числе при обновлении текстов лекций.

**Результаты исследования -** Из проведенных исследований видно, что рост производства сельскохозяйственной продукции в нашей стране характеризуется своей стабильностью, а меры государственной поддержки в направлении его увеличения достаточно широки и разнообразны. Результат исследования также показывает нам, что за последние годы произошли существенные изменения в производстве сельскохозяйственной продукции, в том числе в индексе потребительских цен, что, как следствие, требует использования инновационных механизмов в области согласования интересов обоих производителей. и потребителей.

**Научная новизна исследования -** Увеличение производства в сельском хозяйстве не решается только инвестиционной политикой, важно использовать новые методы управления, а также определять и поддерживать новые стратегические направления.

**Ключевые слова:** *сферы экономической деятельности, аграрный сектор, экономический рост, государственная поддержка, инвестиции, конкурентная среда*

*Məqalə daxil olmuşdur: 12.06.2024*
*Təkrar işləməyə göndərilmişdir: 14.06.2024*
*Çapa qəbul edilmişdir: 16.07.2024*

*Дата поступления статьи в редакцию: 12.06.2024*
*Отправлено на повторную обработку: 14.06.2024*
*Принято к печати: 16.07.2024*

*The date of the admission of the article to the editorial office: 12.06.2024*
*Send for reprocessing: 14.06.2024*
*Accepted for publication: 16.07.2024*